**UOT 022.9 (479.24)**
**KBT Ч738.3(2A)**

# Azərbaycan Milli Kitabxanasının tammətnli elektron resursları informasiya mühitinin seqmenti kimi

**A.Z.Hacıyeva**
aygun_haciyeva_87@mail.ru

**Xülasə:** *Məqalədə Azərbaycan Milli Kitabxanasının oxucularına təqdim etdiyi tammətnli elektron məlumat bazalarından bəhs edilir.*
**Açar sözlər:** *Milli Kitabxana, elektron məlumat bazası, elektron kitabxana*
**Ключевые слова:** *Национальная Библиотека, электронная база данных, электронная библиотека*
**Key words:** *National Library, electronic database, electronic library*

Azərbaycan Milli Kitabxanası – Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə Azərbaycan haqqında nəşr olunmuş çap məhsullarını və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə çap olunmuş məlumat daşıyıcılarını toplayıb mühafizə edən kitabxana və dövlət kitabsaxlayıcısıdır. Azərbaycan Milli Kitabxanası ölkənin zəngin tarixi və mədəni irsinin ən böyük xəzinəsinə məxsusdur. Kitabxananın fondunda Azərbaycan dilində olan nəşrlərin ən tam toplusu, həmçinin elm və texnikanın aparıcı sahələri üzrə dünyanın bir çox dillərində olan ədəbiyyatı mühafizə edilir və eyni zamanda kitabxana öz elektron resurslarını da artırmağa davam edir.

Elektron kitabxanamız ümumi istifadə üçün açıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış informasiya ehtiyatlarına malikdir. Uzaq məsafədə yerləşən ehtiyatlara kitabxana tərəfindən lisenziya - «istifadə hüququ» əldə edilmiş tammətnli məlumat bazaları, həmçinin kitabxana tərəfindən seçilmiş, dəqiqliyinə və etibarlılığına zəmanət verilən «istifadə üçün açıq» olan internet ehtiyatları və kitabxananın hazırladığı müxtəlif istiqamətli məlumat bazaları aiddir.

2015-ci ildə Azərbaycan Milli Kitabxanası öz elektron fondunu genişləndirmək məqsədi ilə elektron kitabxananın xarici elektron informasiya ehtiyatları ilə komplektləşməsini oxucuların sorğusu əsasında həyata keçirərək zəngin axtarış imkanlarına malik, dünyanın və Rusiyanın aparıcı elibrary.ru elektron elmi kitab-

xanasının (ООО «РУНЭБ») rusdilli informasiya ehtiyatlarına abunə olmuşdur.

Məlumat bazası 19 milyondan çox elmi məqalənin xülasə və biblioqrafik yazılarını açıq şəkildə təqdim edir. Xülasələri oxumaq üçün abunə olmaq və ya qeydiyyatdan keçmək tələb olunmur. Lakin xülasələri lisenziya materialı hesab edilən referativ jurnallar istisnalıq təşkil edir. Həmçinin 3145 adda Rusiya elmi jurnalının qeydiyyatdan keçməklə tammətnlərindən istifadə etmək mümkündür. Açıq istifadə mümkün olan bu jurnallarda müxtəlif əlamətlərə görə məqalələrin axtarışını aparmaq olar.

Kitabxana elibrary.ru platformasında elmin müxtəlif sahələrinə dair Rusiyanın 176 adda jurnalının tammətnlərindən elektron formada istifadə üçün abunə olmuşdur. Universal xarakterli (müxtəlif elm sahələrinə dair) elmi jurnalların 2015-ci il buraxılışlarının tammətnlərindən oxucuların istifadəsi məqsədi ilə Oxuculara xidmət şöbəsinin elmi zallarında – humanitar, dəqiq və texniki elmlər zalında, dövri mətbuat zalında, Lokal şəbəkədən istifadə üzrə oxu zalı bölməsində və Elektron resurslardan istifadənin təşkili bölməsində olan kompüterlərə İP ünvan verilərək məlumat bazası həmin kompüterlərə köçürülmüş və oxucuların istifadəsinə verilmişdir. Elektron resurslardan istifadənin təşkili bölməsində məqalələrin surətini çıxarmaq imkanı da yaradılmışdır. Baza Rusiyanın akademiya, universitet, sahəvi və qeyri-kommersiya nəşriyyatlarının elmi jurnallarını təqdim edir. Bunlara Rusiya Elmlər Akademiyasının sahəvi elmi-tədqiqat institutlarının elmi əsərləri, Moskva Universitetinin Xəbərləri, Rusiya Dövlət Tibb Universitetinin Xəbərləri, Rusiya Xalqlar Dostluğu Universitetinin Xəbərləri, həmçinin digər tanınmış nəşriyyatların dövri elmi nəşrlərini misal göstərmək olar.

Baza həmçinin ayrı-ayrı jurnallar haqqında ətraflı məlumat əldə etmək imkanı verir. Belə ki, hər bir jurnal haqqında informasiya əldə etmək (jurnalın tam adı, jurnalı dərc edən nəşriyyat, jurnalın nə zamandan dərc olunduğu, il ərzində neçə dəfə nəşr edildiyi, tirajı, elektron ünvanı, mövzu rubrikaları, redaksiya heyəti, beynəlxalq standart seriya nömrəsi-İSSN və s.), jurnalın müxtəlif nömrələrinin, buraxılışlarının mündəricatına baxmaq, məqalələri müxtəlif əlamətlərə görə (müəllif, sərlövhə, mövzu, açar söz, nəşr ili və s.) axtarmaq, jurnalın saytına internet vasitəsi ilə birbaşa keçib baxmaq, məqalə müəllifinə məktub yazmaq, nəşri elektron ünvanımıza göndərmək, nəşri topluya əlavə etmək, nəşri digər istifadəçilərlə elektron şəkildə müzakirə etmək (şərh vermək), müəllifin bütün nəşrlərinə baxmaq, mövzu üzrə yaxın nəşrləri axtarmaq mümkündür.

Bu elektron məlumat bazası Rusiya Federasiyasının Təhsil və Elm Nazirliyinin sifarişi əsasında yaradılmış istifadə üçün açıq, ödənişsiz olan və hər hansı müəssisənin, alimin, müvafiq jurnalın elmmetrik göstəricilər əsasında nəşr aktivliyini təhlil etmək (jurnalın bibliometrik göstəricilərinin müqayisəsi), qiymətləndirmək, jurnal məqalələrinə edilən istinadları təhlil etmək məqsədi daşı-

yan Elmi Sitatedilmənin Rusiya İndeksi (РИНЦ – Российский Индекс Научного Цитирования) ilə inteqrasiya edilmişdir.

Bundan başqa, elektron kitabxana bölməsində 24 elektron məlumat bazası informasiya tələbatçılarının istifadəsinə verilmişdir. Açıq elm (Open Science) paradiqmasında qurulmuş bu elektron tammətnli məlumat bazaları elmi nəşrlərə elektron formada ödənişsiz operativ girişi təmin edir. Elektron kitabxanadan istifadə etməklə müxtəlif dünya ölkələrinin elmi jurnallarında dərc olunmuş elmi məqalələrin, həmçinin xarici dildə olan kitabların tammətnlərindən yararlanmaq mümkündür. Bunlara Cyberleninka, "Русская литература и фольклор", Springer, OMİCS İnternational, Elgaronline, Project Gutenberg, Bentham Open, Scientific Reports, Cornell University Library və s. misal göstərmək olar.

Elektron kitabxanada digər dillərdə (27 adda, rus, türk və ingilis dillərində) olan elektron jurnallar bölməsi də yerləşdirilmişdir. Jurnallara misal kimi "Современные научные исследования и инновации", "Успехи физических наук", "Научные и технические библиотеки", "Ankara Üniversitesi Dergiler Veritabanı", "Atatürk Üniversitesi Dergileri", "Turkish Journal of Psychiatry", "Turkish Journal of Psychology", "Balkan Journal of Geometry and Its Applications", "Balkan Physics Letters", "The Anatolian Journal of Cardiology" göstərmək olar.

"Dünya kitabxanaları internetdə" adlı bölmədən dünyanın bir çox milli kitabxanalarının, həmçinin İqtisadi əməkdaşlıq Təşkilatına üzv ölkələrin milli kitabxanalarının, Oxford Universiteti Bodlian Kitabxanasının, Rusiya Dövlət Ümumi Elmi-texniki Kitabxanasının, Rusiya Elmlər Akademiyası Kitabxanasının saytlarına girmək mümkündür.

Elektron kitabxana bölməsində kitabxananın fondunda olan kitablar, dövri və ardı davam edən nəşrlər əsasında hazırlanmış şəkil, audio və video materiallarla zənginləşdirilmiş müasir Azərbaycan ədəbiyyatı, dünya uşaq ədəbiyyatı, ədəbiyyat antologiyası, klassik Azərbaycan ədəbiyyatı, Azərbaycan xalq ədəbiyyatı, lüğət və ensiklopediyalar, Azərbaycan dili və tarixi, dünya ədəbiyyatını əks etdirən "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı ilə çap olunmuş kitablar", "Azərbaycan Milli Kitabxanası 90", "Azərbaycan teatrı 140", "BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi", "Bunları unutmaq olmaz! Qan yaddaşımız", "İşğal altında olan torpaqlarımız", "Dağlıq Qarabağ müharibəsi", "Çəmənzəminli Yusif Vəzir", "Elçin", "Əliyeva Mehriban xanım", "Əliyeva Zərifə xanım", "Fikrət Əmirov", "Heydər Əliyev – Mədəniyyətimizin hamisi", "Həsənzadə Nəriman" və s. adlı tammətnli məlumat bazaları da oxucuların istifadəsinə verilmişdir.

Bundan başqa, prezidentin mədəniyyət haqqında sərəncamları ilə tanış olmaq, Mədəniyyət və Turizm Nazirliyi ilə Milli Kitabxananın birgə "Bərpanəşr" layihəsi əsasında nəşr edilmiş kitabların tammətnlərini oxumaq mümkündür.